*Şükürov Elgiz Elnur oğlu, doktorant,*
*Bakı Biznes Universiteti,*
*Email: elgiz_sukurov@mail.ru*

# AZƏRBAYCANDA İXRACIN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ ONUN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Azərbaycan Respublikasında son illər ərzində aparılan uğurlu islahatlar ölkənin bütün sahələrində əsaslı dəyişikliklər yaratmışdır. Xarici ticarətin stimullaşdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən iqtisadi və ticari islahatlar davam etdirilir. Xüsusilə qeyri-neft sektorunun davamlı inkişafına nail olmaq istiqamətində əməli tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə tətbiq edilən mexanizmlərdən biri də ixracın təşviqi mexanizmidir. “Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” ölkə prezidentinin Fərmanına əsasən, ölkə ərazisində istehsal edilən və istehsal prosesində istifadə olunan yerli komponentlərin, qeyri-neft məhsullarının dəyərindən, habelə ixrac olunan məhsulların növündən asılı olaraq, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilir [1]. Bu da ixrac potensialından daha səmərəli istifadə olunması, ixracatçıların məhsullarını beynəlxalq bazarda daha rəqabətqabiliyyətli qiymətlərlə təklif etmək imkanı yaradır.

Ölkəmiz üçün vacib prioritetlərdən biri də ölkədə istehsal olunan mal və xidmətlərin qlobal bazara çıxarılması və dünyada rəqabət aparan ölkələr arasına daxil olmaqdır. Azərbaycan Respublikasında istehsal, emal, təkrar emal olunan malların ixracında şəxslər sərbəstdirlər [2].

Azərbaycanin ixracyönümlü istehsal strategiyasina keçidini təmin edən islahatlar özünü doğrultmaqdadır. Ölkələr üzrə ixracda 2016-2020-ci illəri müqayisə etdikdə 2019-cuılədək dinamik artım müşahidə edilir. Aşağıdakı cədvəl məlumatlarına diqqət yetirək [3]:

***Cədvəl 1.***

**Ölkələr üzrə ixrac (min ABŞ dolları)**

| Ölkələr | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Cəmi** | **13 457 592,1** | **15 319 977,1** | **19 489 068,2** | **19 635 202,8** | **13 740 567,6** |
| Müstəqil Dövlətlər Birliyi-Cəmi | 663 597,1 | 1 128 495,4 | 1 137 291,8 | 1 178 438,9 | 1 306 095,3 |
| Digər dövlətlər-Cəmi | 12 793 995,0 | 14 191 481,7 | 18 351 776,4 | 18 456 763,9 | 12 434 472,3 |

***Mənbə: “Azərbaycanın xarici ticarəti” Statistik məcmuə /2021. (https://www.stat.gov.az)***

Ölkəmizdə əməliyyat növləri üzrə ixracda da təhlil üçün götürdüyümüz 2016-2020-ci illərdə 2020-ci ilədək dinamik artım müşahidə edilmişdir. Bunu bəzi əməliyyat növləri üzrə ixraca aid aşağıdakı cədvəl məlumatlarından da görmək olar [3]:

*Cədvəl 2.*

**Əməliyyat növləri üzrə ixrac (min ABŞ dolları)**

| Əməliyyat növləri | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Cəmi** | **13 457 592,1** | **15 319 977,1** | **19 489 068,2** | **19 635 202,8** | **13 740 567,6** |
| o cümlədən: | | | | | |
| Milli valyuta ilə hesablaşmalar | 26 383,1 | 47 513,4 | 110 522,9 | 46 669,3 | 34 220,4 |
| Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar | 8 687 473,1 | 10 616 433,6 | 14 594 835,7 | 13 373 140,7 | 7 690 084,6 |
| Klirinq üzrə hesablaşmalar | 21,2 | - | - | - | - |
| Qapalı valyuta üzrə hesablaşmalar | 39 263,5 | 23 546,9 | 20 685,3 | 14 004,2 | 19 650,4 |
| Müəssisə və obyektlərin tikintisi haqqında saziş-öhdəlik hesabına malların keçirilməsi | 4 188 318,3 | 4 185 626,1 | 61 724,2 | 1 936 871,5 | - |
| Digər əməliyyat növləri | 516 132,9 | 446 857,1 | 4 701 300,1 | 4 264 517,1 | 5 996 612,2 |

***Mənbə: "Azərbaycanın xarici ticarəti" Statistik məcmuə /2021. (https://www.stat.gov.az)***

Təhlil aparılan 2016-2020-ci illər üzrə ixracın coğrafi quruluşunda da müsbət artım özünü 2020-ci ilədək göstərmişdir. İxracın coğrafi quruluşuna aid aşağıdakı 3 saylı cədvəl məlumatlarından da bunu daha aydın görmək olar [3]:

*Cədvəl 3.*

**İxracın coğrafi quruluşu (min ABŞ dolları)**

| Coğrafi regionlar | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Cəmi** | **13 457 592,1** | **15 319 977,1** | **19 489 068,2** | **19 635 202,8** | **13 740 567,6** |
| o cümlədən: | | | | | |
| Avropa | 8 211 537,6 | 9 918 332,3 | 11 924 314,1 | 11 811 698,7 | 8 259 393,7 |
| Asiya | 4 819 961,3 | 4 559 216,0 | 6 371 753,6 | 7 525 401,5 | 5 047 385,4 |
| Amerika | 182 568,6 | 656 943,9 | 999 639,6 | 168 420,8 | 38 728,1 |
| Afrika | 243 248,8 | 184 796,4 | 192 801,1 | 89 482,8 | 324 254,6 |
| Okeaniya | 275,8 | 688,5 | 559,8 | 40 199,0 | 70 805,8 |

***Mənbə: "Azərbaycanın xarici ticarəti" Statistik məcmuə /2021. (https://www.stat.gov.az)***

Yuxarıda verilən bütün cədvəl məlumatlarından da görünür ki, 2020-ci ildə həm ölkələr üzrə ixrac, həm də əməliyyat növləri üzrə ixrac əvvəlki illərlə müqayisədə kəskin azalmışdı. Eyni zamanda ixracın coğrafi quruluşunda özünü göstərmişdir. Əsasən

bu azalmalara səbəb 2020-ci ilin əvvəlindən etibarən COVID-19 pandemiyasının dünyada yayılması olmuşdur.

Pandemiya nəticəsində iqtisadiyyatin müxtəlif sektorlarında yaranan problemlər xarici ticarət dövriyyəsinə də təsirsiz ötüşməmişdir. Pandemiya zamanı xarici ticarət dövriyyəsinin həcmi və dəyəri, o cümlədən ixracın həcmi və dəyəri azalmışdır. Yaranmış vəziyyətlə əlaqədar qeyri-neft ixracının azalmasının qarşısının alınması məqsədilə ölkəmizdə stimullaşdırıcı qərarlar qəbul edilmiş və bu istiqamətdə dövlət dəstəyi həyata keçirilmişdir.

Hesab edirəm ki, Azərbaycanın artan potensialı ixracın genişləndirilməsinə böyük zəmin yaradır. Bu istiqamətdə qeyri-neft məhsulları ixracının stimullaşdırılması məqsədilə "Made in Azerbaijan" brendinin təbliği ilə bağlı dəstək tədbirləri prioritet istiqamətlərdən hesab edilməlidir.

## İstifadə olunmuş ədəbiyyat:


1. "Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 1 mart 2016-cı il № 811 (e-qanun.az)

2. Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 24 iyun 1997-ci il №– 609

3. "Azərbaycanın xarici ticarəti" Statistik məcmuə /2021. https://www.stat.gov.az